

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 12 (22.923)

*20 yanvar 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Dövlət Universiteti tələbələri Çankırı Karatekin Universitetində semestri uğurla başa vurublar

***Ötən ilin sentyabr ayında Türkiyənin Çankırı Karatekin Universitetində bir semestrlik təhsil almaq üçün göndərilən 15 tələbə semestri uğurla başa vuraraq Naxçıvana qayıdıb. Bu münasibətlə keçirilən tədbirdə çıxış edən ali təhsil ocağının rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov universitetin beynəlxalq əlaqələr sahəsində qazandığı uğurlara toxunaraq bu istiqamətdə həyata keçirilən əhəmiyyətli layihələrdən danışıb.***



"Dövlət dəstəyi hesabına milli təhsil sistemimiz günü-gündən inkişaf edir", – deyən rektor ali təhsil ocağının Bolonya bəyannaməsinin müddəalarına müvafiq olaraq tələbə və müəllimlərin akademik mobilliyinin əsas götürdüyünü və bu istiqamətdə tələbə mübadiləsini davam etdirdiyini diqqətə çatdırıb. Vurğulanıb ki, artıq müvafiq ixtisaslar üzrə tələbələr seçilib və bir semestr təhsil almaq üçün 4 tələbənin Şota Rustaveli adına Batumi Dövlət Universitetinə, 3 tələbənin isə Penza Dövlət Universitetinə göndərilməsi planlaşdırılır.

Çankırı Karatekin Universitetində təhsil alan tələbələrdən Turizm və otelçilik ixtisası üzrə III kurs tələbəsi Rəcəb Səfərov keçirilən imtahan nəticələrinə görə qrup üzrə 27 tələbə arasında I yeri tutub. Fortepiano ifaçılığı ixtisası üzrə III kurs tələbəsi Rövşanə İsmayılovanın isə klassik musiqilər və Azərbaycan mahnılarından ibarət solo konserti olub.

Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Sevinc Abbasova tələbələrin ixtisas təhsili ilə bərabər Naxçıvan Dövlət Universitetinin, muxtar respublikanın tanıdılması istiqamətində gördükləri işlərdən danışıb. Tələbələr adından göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Qeyd edək ki, Erasmus+Key Action çərçivəsində Naxçıvan Dövlət Universitetinin 10 nəfər müəllimi 2017-ci ilin aprel ayında Çankırı Karatekin Universitetində bir həftəlik müəllim mübadiləsi proqramında iştirak edib. Eyni layihə əsasında bu il fevral ayının 25-dən martın 3-nə kimi ali təhsil ocağının 13 nəfərlik müəllim heyəti həmin universitetdə olacaq.

**Səadət ƏLİYEVA**

## Təbrizdə 20 Yanvar faciəsinin ildönümü qeyd olunub



*Yanvarın 17-də Azərbaycan Respublikasının İran İslam Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunda 20 Yanvar faciəsinin 28-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilmişdir.*

Tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Sonra Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş konsulu Əliyənnağı Hüseynov çıxış edərək demişdir ki, 20 Yanvar faciəsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə tarixinin şanlı səhifəsidir. Yanvarın 19-dan 20-nə keçən gecə qurbanlar verməsinə baxmayaraq, Azərbaycan xalqı milli azadlıq və istiqlal uğrunda mübarizliyini, əyilməzliyini, məğrurluğunu bir daha nümayiş etdirmişdir. Həmin gün 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almışdır. 20 Yanvar faciəsinə ilk dəfə xalqımızın ümummilli lideri Heydər Əliyev öz etirazını bildirmişdir. Ulu öndər bütün təzyiqlərə baxmayaraq, Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində bəyanatla çıxış edərək hadisəni törədənləri ifşa etmiş, günahkarların cəzalandırılmasını tələb etmişdir.

Diqqətə çatdırılmışdır ki, ulu öndər Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə müstəqilliyimiz üçün mühüm qərarlar qəbul etmiş, ilk dəfə 20 Yanvar faciəsinə siyasi qiymət vermişdir. Dahi rəhbər ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi qiymət verilmiş, Bakı şəhərindəki Şəhidlər xiyabanı yenidən qurularaq xalqımızın müqəddəs and yerinə çevrilmişdir. Baş konsul ulu öndərin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi və onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərdən də danışmışdır.

Mərasimdə 20 Yanvar hadisələrindən bəhs edən film nümayiş etdirilmiş, hazırlanmış fotostendlərə baxış olmuş, iştirakçılara əyani vəsaitlər paylanmış, ehsan süfrəsi açılmışdır.

İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb nümayəndəliyinin rəhbəri, Şərqi Azərbaycan Vilayətinin rəsmiləri, Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu və konsulluğun əməkdaşları, Təbrizdə yaşayan Azərbaycan vətəndaşları və ictimaiyyət nümayəndələri tədbirdə iştirak etmişlər.

**"Şərq qapısı"**

## 2017-ci ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib

***"Naxçıvan" Universitetində 2017-ci ilin yekunları və qarşıda duran vəzifələrə dair yığıncaq keçirilib. Yığıncağı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq məruzə ilə çıxış edib.***



Bildirilib ki, hesabat ilində "Naxçıvan" Universitetində bütün ixtisaslar üzrə 984 nəfər tələbə təhsil alıb. 2017-2018-ci tədris ilində bu ali təhsil ocağına tələbə qəbulu 70 faiz olub. Belə ki, qəbul layihəsində verilmiş 249 yer üçün 218 tələbə qəbulu olub, 238 nəfəri qeydiyyatdan keçib. Hesabat ilində tədris intizamı daim diqqət mərkəzində saxlanılıb. Vurğulanıb ki, 2017-2018-ci tədris ili üçün 6 nəfər tələbə qəbul olmaqla, universitetin Magistratura şöbəsində, ümumilikdə, 11 nəfər tələbə təhsil alır. Ötən il ali təhsil ocağında Distant Tədris Mərkəzi fəaliyyətə başlayıb, doktoranturaya qəbul aparılıb. Hesabat ilində "Naxçıvan" Universiteti əməkdaşlarının 2 monoqrafiyası, 9 dərs vəsaiti, 16 proqram və metodik vəsaiti,184 məqalə və tezis nəşr edilib ki, bu məqalə və tezislərin 9-u xaricdə dərc olunub. Beynəlxalq əlaqələr sahəsində də qazanılan uğurlara toxunan rektor onu da bildirib ki, "Naxçıvan" Universitetinə xarici tələbələrin cəlbi üçün müəyyən işlər həyata keçirilir. Hazırda bu ali məktəbdə 14 xarici tələbə təhsil alır. Bundan başqa, universitetin Beynəlxalq münasibətlər ixtisasının III kurs tələbəsi Mehrac Abdullayev 2017-2018-ci tədris ili üzrə Türkiyənin Beykent Universiteti ilə bağlanmış müqavilə əsasında həmin universitetdə təhsil alır. 2017-ci il universitet ən yaxşı akkreditə olunmuş universitetlər sırasına daxil olmuşdur.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

*İclasda çıxış edən Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Fazil İbrahimov bildirib ki, muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində yeni iş yerləri yaradılıb, sahibkarlıq mühitinin daha da yaxşılaşmasına, iqtisadiyyata investisiya qoyuluşlarının artmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə nail olunub.*

Qeyd edilib ki, Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin 2017-ci ildə fəaliyyəti idarənin Əsasnaməsinə, təsdiq olunmuş iş planına və digər müvafiq normativ sənədlərə əsasən həyata keçirilmişdir.

Vurğulanıb ki, ötən il idarəyə dövlət təşkilatlarından 19-u elektron olmaqla, 78 məktub daxil olmuşdur. İdarə tərəfindən isə 28-i elektron olmaqla, 70 məktub dövlət təşkilatlarına göndərilmişdir.



2017-ci ildə həyata keçirilmiş audit tədbirləri 9854,2 min manat məbləğində vəsaiti əhatə etmişdir.

Diqqətə çatdırıb ki, nəzarət tədbirlərinin əhatə etdiyi büdcə vəsaitlərinin 34,3 faizi mərkəzi icra hakimiyyəti orqanları və onların tabeli qurumları, 11,4 faizi səhiyyə müəssisəsi, 13,8 faizi təhsil müəssisəsi, 40,5 faizi digər qurumlar tərəfindən icra olunmuşdur. İdarə tərəfindən aparılan audit tədbirləri ilə 2 təşkilatda tarif səhvi nəticəsində 4 nəfərə 262,65 manat artıq əməkhaqqının, 1 təşkilatda isə 2 nəfərə 234 manat ezamiyyə xərcinin artıq ödənildiyi aşkar edilmişdir. Bir təşkilatda isə 1 nəfərin əməkhaqqından 145,03 manat gəlir vergisi tutulmamışdır.

Audit zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq təşkilatlara məktub və maliyyə orqanlarına məlumat göndərilmişdir.

Görülmüş tədbirlər nəticəsində artıq ödənilmiş 262,65 manat əməkhaqqı, 234 manat ezamiyyə xərci və tutulmamış 145,03 manat gəlir vergisi tutularaq büdcəyə bərpa edilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olub.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən kollegiya iclasında nazir Niyazi Novruzov məruzə edib.*

Bildirilib ki, 1996-2016-cı illər ərzində 266 səhiyyə obyekti tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Ötən il isə Şərur Rayon Mərkəzi Xəstəxanasında əsaslı təmir işləri aparılaraq yeni avadanlıqlar quraşdırılıb, Ordubad rayonunun Üstüpü kəndində həkim ambulatoriyası, Naxçıvan şəhərinin Tumbul, Qaraxanbəyli, Şərur rayonunun Çəmənli, Arpaçay, Qarahəsənli, Ələkli, Babək rayonunun Payız, Gərməçataq kəndlərində feldşer-mama məntəqələri tikilərək və yenidən qurularaq istifadəyə verilib. Bu il yanvarın 11-də isə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının yenidən qurmadan sonra istifadəyə verilməsi uşaq əhalisinə göstərilən tibbi xidmətin səviyyəsini daha da yüksəldəcəkdir.

Vurğulanıb ki, muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların səmərəliliyi, müalicə-profilaktika işinin təşkili sahəsində görülən tədbirlər, tibbi xidmətin keyfiyyətinin, əhatəliliyinin artırılması və əhali rifahının davamlı yüksəlişi demoqrafik vəziyyətə öz müsbət təsirini göstərib. Belə ki, muxtar respublikada 2017-ci ildə 5715 uşaq doğulub, 1963 ölüm hadisəsi qeydə alınıb, təbii artım 3752 nəfər, doğum göstəricisi 12,6, ölüm göstəricisi 4,3, 1 yaşa qədər uşaq ölümü 8 nəfər olmaqla, 1,4 promilli təşkil edib.

Muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək, ucqar kəndlərdə və obalarda əhaliyə yüksəkixtisaslı səhiyyə xidmətləri göstərmək məqsədilə yaradılmış həkim briqadaları ötən ildə fəallıq göstərib, çox sayda insanın yerlərdə müayinə-müalicə işini təşkil edib, mədəniyyət işçiləri arasında süd vəzi xərçəngini vaxtında aşkarlamaq üçün kütləvi profilaktik müayinələr, ilkin və-



rəm xəstəliyinin vaxtında aşkarlanması məqsədilə kiçikyaşlı uşaqlar arasında tuberkulin və diaskin test sınağı, yuxarı sinif şagirdləri və müəllimlər arasında flüoroqrafiya müayinəsi və məktəbyaşlı uşaqların kütləvi oftalmoloji, stomatoloji, ortopedik, endokrinoloji müayinələri davam etdirilib.

Niyazi Novruzov hesabat dövründə tibb işçilərinin ixtisas səviyyəsini artırmaq məqsədilə çoxsaylı seminar və konfranslar keçirildiyini, Bakı şəhəri, Türkiyə Respublikası və İran İslam Respublikasının müxtəlif klinika və xəstəxanalarına təkmilləşdirmə kurslarına göndərildiyini, həkim və orta tibb işçilərinin sertifikasiya işinin davam etdirildiyini bildirib. Qeyd edib ki, ötən il müxtəlif klinikalardan yüksəkixtisaslı həkimlər və kollektivlər muxtar respublikaya dəvət olunub və Naxçıvan həkimləri ilə birgə fəaliyyət göstərərək xeyli sayda əməliyyatlar aparıblar. Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə daim dezinfeksiya və dezinseksiya tədbirləri keçirilir.

Sonra Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Statistika və informatika sektorunun müdiri Kəmalə Həsənovanın muxtar respublikada 2017-ci ildə əhaliyə göstərilən tibbi xidmətin vəziyyəti barədə hesabatı dinlənilib, çıxışlar olub.

**Xəbərlər şöbəsi**



# 20 Yanvar faciəsindən 28 il ötür



## Müstəqilliyimizə aparan şərəfli mübarizə yolu – 20 Yanvar

***Azərbaycan xalqına qarşı törədilən 20 Yanvar faciəsindən 28 il ötür. Bu tarix Azərbaycan xalqının ərazi bütövlüyü, dövlət müstəqilliyi, azadlıq və demokratiya, Ermənistanın təcavüzkar hərəkətlərinə və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlıq etməsinə qarşı şərəfli mübarizə günü kimi tarixə düşüb.***

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun xüsusi təlim keçmiş, əsasən, ermənilərdən ibarət olan qoşun hissələri 3 istiqamətdə Bakıya yeridilərək dinc əhaliyə qarşı misligörünməmiş vəhşiliklər törətmiş, insanları öldürmüş, yaşayış evləri atəşə tutulmuş, təcili yardım maşınları, avtomobillər tanklar tərəfindən əzilmiş, yaralılara yardım göstərən tibb işçiləri güllələnmişdi. Bu faciədə 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almış, 4 nəfər itkin düşmüş, 841 nəfər qanunsuz həbs edilmişdir.

Bu əməliyyat SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin xüsusi təyinatlıları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Azərbaycanı informasiya blokadasına salmaq, dünya ictimaiyyətinin bu kütləvi qırğın hadisəsindən xəbərdar olmasının qarşısını almaq məqsədilə dövlət televiziyasının enerji bloku partladılmış, dövri mətbuatın nəşrinə qadağa qoyulmuşdu.

Ozamankı SSRİ rəhbəri Mixail Qorbaçov başda olmaqla, sovet imperiyasının rəhbərliyi xalqımıza iftira və böhtan ataraq bu hadisəni onunla izah edirdi ki, guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, “millətçi ekstremistlər” tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Həqiqətdə isə dinc əhaliyə qarşı kütləvi qırğın Azərbaycan xalqının milli oyanışını, ərazi bütövlüyünü, suverenlik uğrunda mübarizliyini məhv etmək məqsədi daşıyan ideoloji və siyasi təcavüz, terror idi.

Bu qanlı hadisənin törədilməsində əsas məqsəd Azərbaycan kimi geostrateji əhəmiyyətli bir dövlətin azad olmasının qarşısını almaq, öz haqlı tələblərini irəli sürən, dinc yolla azadlıq, suverenlik istəyinə çatmaq, demokratik və müstəqil dövlət qurmaq istəyən xalqın iradəsini qırmaq, insanların müstəqillik arzularını həmişəlik boğmaq idi. Lakin sovet imperiyası buna nail ola bilmədi, kütləvi qırğınlar törətsə də, Azərbaycanı müstəqillik yolundan döndərə bilmədi.

Sovet qoşunlarının 1990-cı il yanvarın 20-də Bakıda törətdikləri qanlı cinayətlər, eyni zamanda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərində erməni silahlı dəstələrinin fəallaşması ilə müşayiət olunmuşdur. Erməni yaraqlıları bütün sərhədboyu Naxçıvana hücum edərək Sədərəyi və Şəruru tutaraq Naxçıvanı ələ keçirmək istəyirdilər. Hadisələrin eyni vaxta təsadüf etməsi, erməni işğalçılarının doğma yurdumuza Sovet qoşunlarının köməyi ilə ardıcıl hücumlar etməsi bunun qabaqcadan, məqsədyönlü şəkildə planlaşdırıldığını, ermənilərin mərkəzi hakimiyyət tərəfindən dəstəkləndiyini bir daha təsdiq edir. Lakin naxçıvanlılar öz doğma torpaqlarının müdafiəsinə qalxaraq ermənilərin planını puç etdi. Yanvarın 19-da Naxçıvanda 9 şəhid oldu, 30 nəfər yaralandı. Lakin heç kimdən kömək görməyən, blokadaya alınmış Naxçıvan əhalisi düşmənlə mübarizə apararaq muxtar respublikanı işğal olunmaq təhlükəsindən qoruyub saxlaya bildi. Bu dövrdə Naxçıvanda baş verən hadisələri ulu öndər Heydər Əliyev belə dəyərləndirmişdir: ***“1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qan tökülmüş və erməni quldur dəstələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişdir. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə Azərbaycanı Naxçıvanla bağlayan dəmiryol xətləri və avtomobil yolları kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur. Məhz belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı. Milli istiqlaliyyət uğrunda mübarizə yollarında o zaman Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi”.***

20 Yanvar hadisələri bir həqiqəti də təsdiq etdi. Ümumxalq hərəkatının faciə ilə nəticələnməsinin əsas səbəblərindən biri xalqı arxasınca aparmaq qüdrətində olan liderin yoxluğu idi. Sonrakı tarixi proseslər təsdiq etdi ki, belə qüdrətli lider yalnız dahi şəxsiyyət Heydər Əliyev ola bilərdi. 20 Yanvar faciəsinə ilk dəfə öz etirazını bildirən, xalqın ən ağır günlərində onunla bir olan da məhz ümummilli liderimiz oldu. Ulu öndər Moskvada özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi: ***“Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan Daimi Nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanda baş vermiş hadisələri hüquqa, demokratiyaya, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm”.***

Xalqımızın böyük oğlu Heydər Əliyevin 20 Yanvar hadisələri ilə bağlı Azərbaycan xalqına göndərdiyi teleqramda isə deyilirdi: ***“Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gətirilən faciədən, dinc əhalinin qırılmasından böyük ürəkağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm”.***

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının o məşəqqətli və ağır günlərində Moskvadan doğma Vətəninə qayıtdı. Görkəmli dövlət xadimi Heydər Əliyev Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Azərbaycanda da ovaxtkı hakimiyyət tərəfindən təzyiq və hədələr göstərilirdi. Buna baxmayaraq, ulu öndərimiz Vətənə döndü. Dahi rəhbərin öz xalqına olan sevgisi, xalqın da ona olan inamı məkrli qüvvələrin arzularını ürəklərində qoydu.

Xalqımıza qarşı törədilən 20 Yanvar faciəsinə ilk dəfə ulu öndərimiz tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisində siyasi qiymət verilmişdir. Ümummilli liderimizin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında “1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” Qərar qəbul olunmuşdur. Ulu öndər Heydər Əliyev müəllifi olduğu bu tarixi sənəddə deyilirdi: ***“Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər. Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır”.***

Qərarda 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm Günü kimi qeyd olunması öz əksini tapmışdır. Ümummilli liderimizin rəhbərliyi ilə 1992-ci il yanvarın 13-də “1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin bəyanatı” qəbul olunmuşdur.

20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilməsi məhz 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndərin adı ilə bağlıdır. Həmin dövrdə ümummilli lider Bakıda ilk olaraq Şəhidlər xiyabanını ziyarət etdi. Şəhidlər xiyabanı xalqımızın müqəddəs and yerinə, ziyarətgahına çevrildi. Məhz ulu öndərin Sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu. Ümummilli liderimizin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunurdu. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana Sovet qoşun hissələrinin yeridilməsinin xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz ümummilli liderimizin təşəbbüsü ilə mümkün olmuşdur. Ümummilli lider Heydər Əliyev 20 Yanvar hadisələrini Azərbaycan xalqının müstəqillik yolunda mübarizə tarixi kimi xarakterizə edərək demişdir: ***“20 Yanvar gününü xatırlayarkən hər birimiz eyni zamanda böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavüz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübut etdi. Şəhidi olan xalq qəhrəman xalqdır. Biz şəhidlərimizin qəm-qüssəsini çəkirik, ancaq onların şəhidliyə getməsi ilə fəxr edirik. Çünki onlar Vətən, ana torpaq, millət, Azərbaycan yolunda həlak olublar”.***

Görkəmli dövlət xadiminin siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, həmin qanlı gecədə əlil olanların sosial müdafiəsinin gücləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir. Dövlət başçısının “20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2006-cı il 19 yanvar, “1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2011-ci il 19 yanvar tarixli fərmanları ilə bu kateqoriyadan olan insanlara göstərilən dövlət qayğısı daha da artırılmışdır. Ölkəmizin paytaxtı Bakı şəhərində şəhidlərin xatirəsinə memorial abidə kompleksi ucaldılmışdır.

***1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş cinayət Azərbaycan xalqını daha da birləşdirdi, xalqın mübarizlik əzmini daha da artırdı. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizlik əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu, Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu. Azərbaycanın şanlı qəhrəmanlıq səhifəsini yazan 20 Yanvar şəhidlərinin parlaq xatirəsi Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qəlbimizdə daim yaşayacaqdır.***

**“Şərq qapısı”**

## 20 Yanvar azadlığımızın və milli iradəmizin simvoludur



***AMEA Naxçıvan Bölməsində 20 Yanvar faciəsinin 28-ci ildönümünə həsr olunan “20 Yanvar – azadlığımızın və milli iradəmizin simvolu” mövzusunda elmi konfrans keçirilib. Əvvəlcə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək SSRİ-nin ermənipərəst rəhbərliyinin Azərbaycan xalqına qarşı məkrli siyasəti nəticəsində 20 Yanvar faciəsinin törədildiyini bildirib. Qeyd edib ki, həmin gün Azərbaycan xalqının tarixinə tək faciə kimi yox, həm də qəhrəmanlıq zirvəsi kimi yazılıb.

İsmayıl Hacıyev ölkəmizin həmin ərəfədə informasiya blokadasında olduğunu və ümummilli lider Heydər Əliyevin Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində cəsarətli bəyanatı ilə xalqın səsini dünyaya çatdırdığını söyləyib.

Sonra bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov “20 Yanvar faciəsi ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət”, həmin institutun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev “Ümummilli lider Heydər Əliyev və 20 Yanvar faciəsi”, şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilov “20 Yanvar faciəsi – insanlığa qarşı cinayət” və İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aygün Orucova “20 Yanvar hadisələri bədii ədəbiyyatda” mövzularında elmi məruzələrlə çıxış ediblər.

Tədbirdə, həmçinin Vətən uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş Bəxtiyar Vahabzadənin “Şəhidlər” poemasından parçalar, Qabilin “Mərsiyə”sindən, Məmməd Arazın “Ayağa dur, Azərbaycan”, Məmməd Aslanın “Ağla, qərənfil, ağla”, eləcə də Asim Yadigarın “Şəhidlik”, Xanəli Kərimlinin “Bütövlük” poemalarından parçalar, Vaqif Məmmədovun “Sədərək harayı” və digər şairlərin bu qəbildən olan şeirləri diqqətə çatdırılıb.

Tədbir iştirakçıları bölmənin Elektron kitabxanasında təşkil edilən “Qanlı 20 Yanvar” başlıqlı sərgi ilə də tanış olublar.

*AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi*

***Yanvarın 19-da Naxçıvan Dövlət Film Fondunda Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin, şöbənin Gənclər Birliyinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinə həsr olunmuş tədbir keçirilib.***

## Qanlı Yanvar şəhidlərinin xatirəsi anılıb

Tədbiri Film Fondunun direktoru Mirakif Seyidov açaraq bildirib ki, 20 Yanvar hadisələri Azərbaycan xalqını bütün dünyaya müstəqil yaşamağa qadir, eyni zamanda əyilməz bir xalq kimi tanıdıb. Həmin gün müstəqillik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının unudulmaz qəhrəmanlıq səhifəsidir.

Sonra Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin Gənclər Birliyi şöbəsinin sədri Aysəma Babayeva çıxış edərək qeyd edib ki, 20 Yanvar xalqımızın milli qürur günüdür. Azərbaycan xalqı öz qəhrəman övladlarının xatirəsini daim uca tutur və dərin ehtiramla yad edir. Xalqımızın işıqlı sabahı üçün canlarından keçən şəhidlərimizin xatirəsini gələcək nəsillər də böyük ehtiramla xatırlayacaqlar.

Çıxışda faciənin törədilmə səbəblərindən, bu faciəyə hüquqi-siyasi qiymət verilməsində ulu öndərimiz Heydər Əliyevin tarixi xidmətlərindən, Azərbaycan xalqının mübarizliyindən, bu gün qüdrətli ordumuz tərəfindən sərhədlərimizi etibarlı müdafiə edilməsindən bəhs olunub.

Tədbir iştirakçıları sonra uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin rəsmlərindən ibarət sərgiyə baxıblar. Sərgidə xalqımızın müstəqillik mübarizəsi, 20 Yanvar hadisələri uşaqların gözü ilə təsvir edilib.

Sonda Yanvar hadisələrindən bəhs edən “Bakı – 1990” sənədli filmi nümayiş etdirilib.

**Əli RZAYEV**

***Ötən il sentyabrın 27-də Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) layihələr üzrə rəhbəri Ronald Şulz, həmin cəmiyyətin layihələr üzrə baş meneceri Lüdmila Metzdorf və Bakı Biznes Tədris Mərkəzinin əməkdaşları muxtar respublikaya səfər etmişlər. Həmin gün Naxçıvan Biznes Mərkəzində muxtar respublikanın 46 özəl sektor nümayəndəsinin iştirakı ilə “Azərbaycan biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı: nailiyyətlər və perspektivlər” mövzusunda maarifləndirici seminar keçirilmişdir. Səfər müddətində qonaqlar muxtar respublikanın görməli yerləri, istehsal müəssisələri və iqtisadi potensialı ilə yaxından tanış olmuşlar. Səfərlə bağlı Almaniyanın İqtisadi Əlaqələr və Energetika Federal Nazirliyinin Menecer Təlim Proqramının dərc etdiyi “Almaniya ilə əməkdaşlığa uyğunlaşma Jurnalı”nın 2017-ci il 11 saylı buraxılışında Naxçıvan Muxtar Respublikası haqqında məqalə dərc edilmişdir. Həmin məqaləni təqdim edirik.***

Naxçıvan xarici mediada

# Potensialın artırılması

2017-ci ilin payızında Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) nümayəndələri Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialı haqqında məlumat toplamaq məqsədilə muxtar respublikaya səfər etmişlər. Azərbaycanın eksklav ərazisi olan muxtar respublikanın 450 mindən artıq əhalisi vardır. Naxçıvan sözü “məskunlaşma yeri” (“kök salma yeri”) kimi tərcümə olunur və Nuhla əlaqələndirilir.

Muxtar respublika Türkiyə, İran və Ermənistan ilə həmsərhəddir, öz Konstitusiyasına və parlamentinə malikdir. Azərbaycanın digər bölgələri ilə əlaqələrin məhdud olması səbəbindən Naxçıvanın iqtisadiyyatı qonşu Türkiyə ilə sıx əlaqədədir. İqtisadi inkişaf yolunu tutan muxtar respublikada kənd təsərrüfatı və filiz mədənçiliyi iqtisadi fəaliyyətin əsas sahələrini təşkil edir. Naxçıvan Muxtar Respublikasının rəhbəri səmərəli olmayan iqtisadi sahələrin




fəaliyyətini dayandırmış və xarici investisiyaları cəlb etməklə digər sahələri modernləşdirmişdir. Burada kənd təsərrüfatı Azərbaycan dövlətinin rəsmi iqtisadi inkişaf siyasətinin hədəflərinə uyğun olaraq inkişaf edir.

Naxçıvandan olan bəzi şirkət nümayəndələri BMW-nin Menecer Təlim proqramlarında iştirak ediblər. Tərəfdaşımız olan Bakı Biznes Təlim Tədris Mərkəzinin təşəbbüsü ilə təşkil olunan tanışlıq səfəri zamanı Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (GİZ) nümayəndələri yerli sahibkarlarla görüşmüş və onların istehsal etdiyi geniş çeşiddə məhsul və xidmətlərlə tanış olmuşlar. Mərmər emalı şirkəti öz məhsullarının bir hissəsini Gürcüstan, İran və Türkiyəyə ixrac edir.

Səhiyyə turizmi də inkişaf etdirilir. Qədim duz şaxtalarında yaradılan Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq iştirakçılarda xüsusi təəssürat yaratdı. Buraya İran, Qazaxıstan, Rusiya və digər ölkələrdən çox sayda ziyarətçilər gəlir.

Sonda bir məsələni də vurğulamaq istəyirik ki, Menecer Proqramı özəl sektorun orta və yüksək idarəetmə strukturlarında çalışan ixtisaslı mütəxəssislərə və şirkət nümayəndələrinə təlimlər keçir və onlara müasir idarəetmə metodlarını öyrədir. Bu səbəbdən Menecer Proqramının Azərbaycandakı tərəfdaşları gələcəkdə Naxçıvandan daha çox iştirakçı cəlb etməklə bölgənin iqtisadi inkişafına öz töhfəsini vermək niyyətindədir.

***“Almaniya ilə əməkdaşlığa uyğunlaşma Jurnalı” 2017-ci il, nömrə 11***

***20 Yanvar faciəsindən 28 il ötür. Bu faciə ən yeni tariximizə xalqımızın müstəqillik uğrunda mübarizəsinin uca zirvəsi kimi yazılıb. Reallıq budur ki, əgər həmin illərdə biz müstəqil dövlətə və bu müstəqilliyin qarantı olan güclü milli orduya malik olsaydıq, onda nə 20 Yanvar, nə də Xocalı faciələri baş verərdi. Ancaq o tarixi dövrdən fərqli olaraq bu gün qürurla deyə bilirik ki, bizim müstəqil dövlətimiz və güclü ordumuz var. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qurulan milli ordumuz bu gün təkcə regionun deyil, dünyanın ən güclü ordularından biridir.***

Ordum varsa, yurdum var

# Qüdrətli Azərbaycan Ordusu müstəqilliyimizin qarantıdır

Ötən dövrdə ordu quruculuğuna dövlətimiz tərəfindən göstərilən hərtərəfli qayğı Silahlı Qüvvələrimizin yeni mərhələyə qədəm qoymasına şərait yaratmaqla yanaşı, ölkəmizin regionda nüfuzunun artmasına da öz təsirini göstərib.

Qeyd edək ki, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanda ilk milli ordu hissələrinin yaradılmasına Naxçıvandan başlayıb. Məhz həmin dövrdən etibarən muxtar respublikada ordu quruculuğu bir çox mərhələlərdən keçib və ötən hər il hərbi hissələr daha da təkmilləşdirilib. 2013-cü ilin dekabrında isə muxtar respublikada 5-ci Ordu Korpusunun bazasında Əlahiddə Ümumqoşun Ordusu yaradılıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən atılan bu tarixi addım Naxçıvanın hərbi gücünün artırılmasında yeni bir mərhələyə çevrilib. Qısa müddət ərzində Əlahiddə Ümumqoşun Ordusu müxtəlif təyinatlı müasir döyüş texnikaları ilə təmin olunub, şəxsi heyətin sayı dəfələrlə artırılıb.

Əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də iqtisadi və sosial sahədə əldə edilmiş nailiyyətlər ordu quruculuğunda da uğurların qazanılmasına imkan verib. Ötən



illərdə orduda döyüş qabiliyyətinin artırılması istiqamətində ardıcıl tədbirlər görülüb, muxtar respublika ərazisindəki hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilib, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılıb, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılıb. 2017-ci ildə bu sahədə görülən işlərin davamı kimi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin iştirakı ilə Əlahiddə Ümumqoşun Ordusunun Naxçıvan şəhərində yerləşən hərbi hissəsində 900 yerlik əsgər yataqxanası və Əsgəri-Məişət Kompleksi istifadəyə verilib.

2017-ci tədris ilində Silahlı Qüvvələrin muxtar respublikada yerləşən birləşmə və hərbi hissələri hər bir tapşırığı peşəkarlıqla yerinə yetiriblər. Belə ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən iyunun 12-15-də Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin birgə əməliyyat taktiki təlimləri keçirilib. Təlimə Əlahiddə Ümumqoşun Ordusunun birləşmə və hissələri ilə yanaşı, Əlahiddə Sərhəd Diviziyasının, Əlahiddə Əməliyyat Briqadasının və Mülki Müdafiə Alayının bölmələrinin, ümumilikdə, 5 minə yaxın şəxsi heyəti, 250-dən artıq zirehli və 500-ə yaxın avtomobil texnikası cəlb edilib, qarşıya qoyulmuş tapşırıqlar uğurla yerinə yetirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov birgə əməliyyat taktiki təlimi izləyib, təlimdə iştirak





edən şəxsi heyətə təşəkkürünü bildirərək deyib: ***“Bu gün müstəqil Azərbaycanda ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkə Prezidentinin rəhbərliyi ilə ordumuz inkişaf edərək ən müasir səviyyəyə gəlib çatmışdır. Ən yeni silah və texnika ilə təminat, vətənpərvər və peşəkar şəxsi heyət, hərbi qulluqçulara davamlı qayğı Azərbaycan ordusunun reallıqlarıdır. Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu və birləşmələri də mühüm təşkilatlanma yolu keçərək daha da möhkəmlənmişdir”.***

Ötən ilin yaddaqalan hadisələrindən biri də oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünün qeyd olunmasıdır. Bu münasibətlə keçirilən hərbi paradda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordusunun, birləşmə və hissələrinin 2 min nəfərə yaxın şəxsi heyəti, 160-dan çox hərbi texnika və silah sistemləri, o cümlədən 10-dan artıq döyüş vertolyotu və təyyarəsi iştirak edib. Müstəqillik günündə Naxçıvanda ilk milli hərbi hissənin yaranmasının 25-ci ildönümünə həsr olunmuş hərbi paradın keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublikadakı birləşmə və hissələrinin güc və qüdrətini bir daha nümayiş etdirib.

Həmin gün Əlahiddə Ümumqoşun Ordusunun yeni Təlim-Tədris Mərkəzi də istifadəyə verilib. Üç mərtəbədən ibarət olan binada simulyasiya mərkəzi, trenajor zalı, zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, kitabxana, mətbəə, xarici dillər kabinəsi və 700 yerlik tədbirlər zalı vardır. Burada yaradılmış şərait hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsinə, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılmasına imkan verir.

Ötən il dekabrın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Babək rayonunun Gərməçataq kəndindəki hərbi hissədə və hərbi hissənin əhatə etdiyi postda olması, burada əsgər və zabitlərlə görüşməsi dövlətimizin orduya göstərdiyi qayğını bir daha özündə əks etdirir. Bütün bunların nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordusu 2017-ci ildə hazırlıq planına əsasən görülən işlərin nəticələrinə, döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülüb.

Xatırlatmaq lazımdır ki, Silahlı Qüvvələrimizə göstərilən böyük dövlət qayğısı bununla bitmir. Elə 2018-ci ilin ilk ayında – yanvarın 14-də “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının hərbi şəhərciyindəki xidməti yaşayış binasının əsaslı şəkildə yenidənqurmadan sonra istifadəyə verilməsi bu sahədə görülən işlərin davamıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yeni ildə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında xidməti yaşayış binasının yenidənqurma işlərindən sonra istifadəyə verilməsi münasibətilə sərhədçi ailələrini təbrik edərək deyib: ***“Ölkəmizdə ordu quruculuğuna xüsusi diqqət göstərilir, xidmətin təşkili üçün hərtərəfli şərait yaradılır. Bununla yanaşı, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, yeni yaşayış binaları tikilir, mövcud yaşayış binaları yenidən qurulur, qüsursuz xidmət edən hərbi qulluqçulara mənzillər verilir. Bütün bunlar da Azərbaycan dövlətinin orduya və zabit ailələrinə göstərdiyi qayğının, ordu quruculuğu sahəsində görülən işlərin nümunəsidir”.***

Muxtar respublikada sərhəd xidməti təkmilləşdirilməklə yanaşı, sərhədçi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır. Həmin gün istifadəyə verilən yaşayış binası da sərhədçi ailələrinin müasir və təhlükəsiz şəraitdə yaşamasına imkan verib.

Bütün bunlar onu deməyə əsas verir ki, muxtar respublikamızda ordu quruculuğu sahəsində görülən işlərin səviyyəsi ölçüyəgəlməzdir. Bu gün Əlahiddə Ümumqoşun Ordusu muxtar respublikanın düşmənlə sərhəddəki bütün təmas xəttini nəzarətdə saxlamağa imkan verir. Görülən işlərin nəticəsidir ki, muxtar respublikamızın təhlükəsizliyinin təminatçısına çevrilən Əlahiddə Ümumqoşun Ordusu hər keçən gün gücünü daha da artırır. Əlahiddə Ümumqoşun Ordusunun yaradılması, bu ordunun indiyədək müxtəlif taktiki təlimlərdə yüksək nəticələr əldə etməsi düşmənlərimizi indi daha çox narahat edir.

*Bu gün hər birimiz qürur hissi keçiririk ki, biz müstəqil dövlətdə yaşayırıq, xalqımız bu Vətənin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızı unutmur, onları ehtiramla yad edir. Bu qürur hissini isə bizə qüdrətli müstəqil Azərbaycan və onu qoruyan güclü Ordumuz yaşadır.*

Səbuhi HƏSƏNOV

# Şəhid məzarları pirdi, ocaqdı...




Xalqımızın istiqlal mübarizəsinin önündə gedən böyük vətənpərvər şairimiz Xəlil Rza Ulutürk şeirlərinin birində yazırdı:

*Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram*
*Qolumdakı zəncirləri qıram gərək,*
*qıram-qıram...*

Azadlıq elə bir şirin nemətdir ki, o, özünə, tarixi keçmişinə, soykökünə hörmət etməyi bacaran xalqların qismətinə düşür. O xalqların övladları da vətənpərvər böyüyürlər, doğulduqları yurd yeri onlar üçün səcdəgah qədər qiymətli olur. Beləlri öz yurdunun azadlığa qovuşması yolunda canlarından keçməyi şərəf işi hesab edirlər. Çünki azadlıq heç kəsə elə-belə verilmir, qazanılır. Bu yolda qanlar tökülür, qurbanlar verilir. Şəhidlik zirvəsi fəth olunur. Elə xalqın azadlıq, müstəqillik tarixi də onda yazılır...

Tarixən başı çoxlu bəlalar çəkmiş, dəfələrlə döyüş meydanlarına çevrilmiş Azərbaycanımız da bu əvəzsiz nemət uğrunda tarixin müxtəlif dönəmlərində mübarizələrə qalxmış, özünün varlığını sübut etməyə çalışmışdır.

...Düz 28 il bundan qabaq xalqımız özünün belə bir qəhrəmanlıq tarixinə imza atdı:

*Bəsdir Qorqud Dədələrlə öyündün,*
*Hünərin var, özün Qorqud ol görüm,*
*Vətən, Vətən deməkdənsə kürsüdən*
*Yeri gəlsə, Vətən üçün öl görüm.*

O soyuq qış günü Vətən övladları üçün kürsü qədim Bakının qan gölünə çevrilən küçələri oldu. İgid eloğullarımız o gün bir daha sübut etdilər ki, torpaq, uğrunda ölən varsa, Vətəndir. Bu amal uğrunda ölümün gözünə dik baxmaq üçünsə, insanın qanında azadlıq eşqi, azadlıq duyğuları alovlanmalıdır. Damarlarında axan qan onları doğma yurda bağlamalıdır.

Qanlı Yanvar qırğınını törədənləri tarix də, xalqımız da nifrətlə xatırlayır. Çünki o müdhiş gecədə azğınlaşmış, heç əvvəldən də mənəvi siması olmayan imperiya bütün iç üzünü göstərdi. Ancaq Azərbaycan xalqının iradəsini, əzmini qıra, azadlıq eşqini söndürə bilmədi. O gün qırmızı sovet imperiyasının təpədən-dırnağa müasir hərbi texnika ilə silahlanmış, azğınlaşmış ordusu fövqəladə vəziyyət elan olunmadan azadlıq istəyən, torpağını, yurdunu canından əziz sevən günahsız bir xalqın üstünə yeridildi. Avtomatlardan, pulemyotlardan dolu kimi güllələr yağdırıldı, Bakı güllələbarana tutuldu. Nə uşağa, nə qocaya, nə də qadına aman verilmədi. Guya bununla xalqın gözünün odunu alacaq, onun azadlıq əzmini qıracaqdılar. Lakin Kremlin şovinist rəhbərləri və respublikamızda onların buyuruğu ilə oturub-duran manqurt havadarları bir məsələni unutmuşdular. Unutmuşdular ki, bu xalqın Vətəni öz canından artıq sevən övladları var. Və onlar yüksək amallar uğrunda "uf" demədən özlərini ölümün ağuşuna atmağı, şəhidlik zirvəsinə yüksəlməyi bacarırlar. Çünki damarlarında Koroğlunun, Babəkin, Tomris ananın, Sara xatının qanı axır.

Ölümün gözünə dik baxan belə övladların hesabına müstəqilliyə, azadlığa qovuşduq. Daim ehtiramla, böyük minnətdarlıq hissləri ilə xatırlanan şəhidlərimiz bu gün xalqımızın qəlbində yaşayırlar. Müxtəlif yaşlarda əbədiyyətə qovuşan igid soydaşlarımız onları görənlərin yaddaşlarında da bu yaşda qalıblar. Onlar xalqımıza müstəqilliyimizlə yanaşı, həm də müqəddəs and yerləri – Şəhid xiyabanları bəxş etdilər. Bu xiyabanlardakı məzarlarda uyuyanlar dünya durduqca qədirbilən xalqımız tərəfindən böyük sevgi və sonsuz məhəbbətlə yad ediləcəklər. Bu məzarlar dünyaya gələn yeni nəsillərə onların qəhrəmanlığından danışacaq, bu günlərin qədrini bilməyi tövsiyə edəcək, ürəklərdəki Vətən yanğısını, yurd sevgisini sönməyə qoymayacaq. Çünki:

*Sönsə ürəklərdə Vətən yanğısı*
*İgidlər bu yerdən od alacaqdır,*
*Şəhid məzarları inanc yerimiz,*
*Şəhid məzarları pirdi, ocaqdı...*

**Muxtar MƏMMƏDOV**

## Xatirə Muzeyi ilə muxtar respublikanın təhsil müəssisələri arasında interaktiv əlaqə yaradılıb

***20 Yanvar faciəsinin 28-ci ildönümü münasibətilə yanvarın 19-da Naxçıvan şəhərindəki Xatirə Muzeyi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında interaktiv əlaqə yaradılıb.***



Muzeyin direktoru Aytən Qasımova bildirib ki, muzeydə 2 minə yaxın eksponat var və onlardan 400-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının azərbaycanlılara qarşı müxtəlif illərdə törətdikləri dəhşətli cinayətlərin izləri bu eksponatlarda öz əksini tapıb. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar saxlanılır. Eyni zamanda muzeydə qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir.

Qeyd olunub ki, Xatirə Muzeyi azərbaycanlılara qarşı 1905-1907-ci, 1918-1920-ci illərdə törədilən kütləvi soyqırımı aktlarını, həmçinin 1948-1953-cü illərdə azərbaycanlıların öz dədə-baba torpaqlarından deportasiyasını, 1990-cı il 20 Yanvar, 1992-ci il Xocalı faciələrini özündə əks etdirən eksponatlarla zəngindir. Muzeydə ermənilərin Bakıda, Şamaxıda, Qarabağda, Naxçıvanda və digər bölgələrimizdə törətdikləri soyqırımları əks etdirən sənədlər, şəkillər, hadisələri tarixi faktlarla oxuculara çatdıran qiymətli kitablar vardır.


*Naxçıvan şəhər 15 nömrəli tam orta məktəb*


*Babək qəsəbə 1 nömrəli tam orta məktəb*

Qəhrəmanlıq və qürur tariximiz olan 20 Yanvar faciəsi barədə danışan Aytən Qasımova deyib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı terror aktı həyata keçirib. Azərbaycanı sovet imperiyasının buxovunda saxlamaq və sovet rejiminin hegemonluğunu hələ uzun müddət davam etdirmək məqsədilə Bakıya ordu yeridilib, misligörünməmiş qətliam törədilib.

Diqqətə çatdırılıb ki, xalqımıza qarşı törədilən bu cinayəti ilk dəfə ümummilli liderimiz Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində mətbuat konfransı keçirərək insanlığa zidd aksiya kimi pisləyib. Əsl vətəndaşlıq və ümummilli mübarizəyə çağırış məqamı olan bu addım Azərbaycan xalqının milli azadlıq uğrunda apardığı mücadilədə əsas stimul olub. 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi də ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Vurğulanıb ki, 20 Yanvar faciəsi ərəfəsində Naxçıvan Muxtar Respublikasının sərhəd kəndləri də erməni silahlılarının işğalçı hücumlarına məruz qalıb. 1990-cı il yanvar ayında Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal edilib, Qanlı Yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə, muxtar respublikanın digər sərhəd kəndlərinə erməni silahlı dəstələrinin hücumları başlayıb. Hazırda muzeydə Bakıda və Naxçıvanda baş verən həmin hadisələri əks etdirən çoxsaylı eksponatlar vardır.

Qeyd edək ki, həmin gün muxtar respublikanın bütün ümumtəhsil məktəblərində bir dərs saatı 20 Yanvar faciəsinə həsr olunub.

**Nail ƏSGƏROV**

## Müsabiqənin qalibləri mükafatlandırılıb

***Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Yazıçılar Birliyinin təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərinin şagirdləri arasında vətənpərvərlik mövzusunda şeir müsabiqəsi keçirilib.***

Müsabiqə iki mərhələdə olub: rayon, şəhər, muxtar respublika mərhələlərində. Sonda münsiflər heyətinin qərarına əsasən Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Qızbəsti Quliyeva qalib adını qazanıb. Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin şagirdi Anar Mikayılov ikinci, Naxçıvan Qızlar Liseyinin şagirdi Nuray İsmayılova, Şərur rayon Axaməd kənd tam orta məktəbinin şagirdi Ramilə İsmayılova və Ordubad rayon Əndəmic kənd tam orta məktəbinin şagirdi Fatimə Hüseynli üçüncü yerlərə layiq görülüblər.

Müsabiqənin digər iştirakçıları isə həvəsləndirici yerlərlə mükafatlandırılıblar.

Tədbirdə, həmçinin Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən "Torpaq uğrunda ölən varsa, Vətəndir" adlı inşa yazı müsabiqəsinin muxtar respublika mərhələsinin qalibləri də mükafatlandırılıb.

Qaliblərə diplom, fəxri fərmanlar, oxunması zəruri olan kitablar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Həsənov İsmayıl Qəhrəman oğlunun adına olan evin 2565 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 64